AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

1 DEKABR 2024-cü il BAZAR № 265 (8023) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ

## Güclü lider, güclü dövlət aksiomu: müasir dünyada qətiyyətli rəhbərlərə daha çox ehtiyac var



**Dünyanın sürətlə dəyişən mühiti ənənəvi dəyərləri qorumağın və təhlükəsizliyi təmin etməyin vacibliyini daha da artırıb. Bugünkü dünyada xüsusən də müasir təhdidlər, ideoloji müxtəlifliklər və geosiyasi gərginliklər fonunda ənənəvi dəyərləri müdafiə edən liderlərə olan ehtiyac getdikcə artır. Geosiyasi təhdidlər, silahlanma yarışları, beynəlxalq münaqişələr və sosial-iqtisadi qeyri-sabitlik fonunda dünya liderlərinin üzərinə qlobal təhlükəsizliyi təmin etmək və öz dövlətlərinin müstəqilliyini qorumaq istiqamətində böyük məsuliyyət düşür. Güclü liderlər yalnız öz dövlətləri üçün deyil, bütün bəşəriyyət üçün təhlükəsiz bir dünya qurulmasına səy göstərirlər.**

Ümummilli lider Heydər Əliyev Azərbaycanın müstəqilliyini gücləndirərək xalqın rifahını artıran siyasət həyata keçirib. Məhz ulu öndərin siyasi görüşləri müasir Azərbaycanın əsasını qoyub. Çağdaş dövrdə də güclü liderlər dünya siyasətinə təsir etməyə davam edir. Prezident İlham Əliyev, Rəcəb Tayyib Ərdoğan, Donald Tramp, Viktor Orban, Aleksandar Vuçiç güclü liderlik xüsusiyyətləri ilə seçilir. Hazırda onlar öz ölkələrinin inkişafında, regional və qlobal siyasətdə mühüm rol oynayırlar.

Macarıstanın baş naziri Viktor Orbanın daxili və xarici siyasəti milli suverenlik və ənənəvi dəyərlərin qorunmasına yönəlib. O, Macarıstanın maraqlarını qlobalist tendensiyalardan üstün tutur, tez-tez Avropa İttifaqını tənqid edir. Aleksandar Vuçiç isə Serbiyada siyasi sabitliyi təmin edərək iqtisadi islahatlar həyata keçirib. A.Vuçiç özünün geniş ictimai dəstəyini qoruyub və iqtisadi inkişaf sahəsində mühüm addımlar atıb. Donald Tramp da ABŞ-ın iqtisadi maraqlarını qorumağa və xarici siyasətdə daha sərt mövqe sərgiləməyə çalışır. Məhz onun prezidentliyi dövründə ABŞ iqtisadiyyatında bəzi sahələrdə artım qeydə alınıb, işsizlik səviyyəsi aşağı düşüb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsinin iqdisadi, siyasi həyatında böyük dəyişikliklər edib. Türkiyə lideri 20 ildən çoxdur ki, xalqın dəstəyini qazanmağı bacarıb. Ölkə başçısının rəhbərliyi ilə Türkiyə regional güc olaraq həm siyasi, həm də hərbi baxımdan mövqeyini möhkəmləndirib. Qardaş ölkənin iqtisadiyyatında böyük infrastruktur layihələri (məsələn, İstanbul Hava Limanı, Yavuz Sultan Səlim Körpüsü, Avrasiya Tuneli) ölkənin inkişafına töhfə verib. R.T.Ərdoğanın rəhbərliyi ilə Türkiyə 2020-ci ildə Qara dənizdə böyük təbii qaz yataqları aşkar edib və bu kəşf enerji təhlükəsizliyi istiqamətində mühüm addımdır. Türkiyənin pilotsuz uçuş aparatları (PUA) istehsalı sahəsində dünya liderlərindən birinə çevrilməsi də məhz Rəcəb Tayyip Ərdoğanın hakimiyyəti dövründəki böyük uğurlardandır. "Bayraktar TB2" və "Akıncı" PUA-ları, TF-X (Türkiyənin özünə məxsus beşinci nəsil qırıcı təyyarə layihəsi) beynəlxalq səviyyədə tanınır.

Bu liderlər öz ölkələrinin maraqlarını qorumaq üçün ən ağır zamanlarda qərar qəbul ediblər. Onlar həm daxildə, həm də xarici siyasətdə ölkələrini gücləndirmək üçün çalışıblar. Adıçəkilən ölkə başçılarının hər biri öz dövlətlərinin tarixinə və beynəlxalq arenada mövqelərinə mühüm töhfələr verib.

(davamı 2-ci səhifədə)

(əvvəli 1-ci səhifədə)

Onların liderliyi, qərarları və vizyonları artıq tarixin səhifələrində öz yerini alıb. Güclü liderlər dövlətlərinin yalnız bu gününü deyil, sabahını da düşünür, uzunmüddətli hədəflər müəyyən edir və gələcəyi planlaşdırırlar. Prezident İlham Əliyev Azərbaycanın müstəqilliyini gücləndirməklə ölkəni beynəlxalq aləmdə daha nüfuzlu mövqeyə çatdırıb. Ölkə başçısı İkinci Qarabağ müharibəsində liderlik qabiliyyəti ilə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpasına nail olub.

Güclü liderlər həm də xalqın dəstəyini qazanmağı bacarmalıdırlar. Onlar xalqa ilham verməli, insanları birləşdirməlidirlər. Prezident İlham Əliyev bu baxımdan həm də xalqın lideri olaraq özünü təsdiqləyib. İkinci Qarabağ müharibəsi bu liderlik xüsusiyyətlərini daha da parlaq şəkildə göstərdi. 44 günlük müharibə zamanı ölkə başçısının xalqla münasibəti, çıxışları, təbliğatı və qərarları mühüm əhəmiyyət kəsb etdi. Müharibə boyunca Prezident İlham Əliyev ölkə daxilində birliyə və ruh yüksəkliyinə səbəb olan liderlik göstərdi. Bu xüsusilə müharibənin ağır anlarında, Azərbaycan xalqının əhvali-ruhiyyəsi və mənəvi dəstəyi baxımından çox önəmli oldu. Prezident İlham Əliyev müharibə başlamazdan əvvəl, həmçinin savaş dövründə xalqı birləşdirən çoxsaylı çıxışlar etdi. Dövlət başçısı Azərbaycan xalqını möhkəm, inamlı və qorxmaz olmağa çağırdı. "Qarabağ Azərbaycandır!" şüarı ilə Prezident hər bir Azərbaycan vətəndaşına cəsarət verdi. İkinci Qarabağ müharibəsinin başlanğıcından sonra Prezident İlham Əliyevin məqsədli siyasəti xalq arasında güvən yaratdı. Müharibə dövründə xalqın Prezidentinə olan inamı, sadəcə hərbi cəhətdən deyil, həm də siyasi və iqtisadi müstəvidə də genişləndi. Prezidentin hər bir addımı, xalqın da ona olan dəstəyini artırdı və bu dəstək Azərbaycan ordusunun müharibə əzmini gücləndirdi. Ölkə başçısı müharibə dövründə xalqa verdiyi inamla ölkəmizin gücünü daha da artırdı, xalqın liderinə olan dəstəyi, Azərbaycanın zəfərini mümkün etdi.



Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz təkcə hazırkı inkişafını deyil, həm də uzunmüddətli perspektivdə möhkəm iqtisadi, siyasi və sosial bünövrə qurmağa yönəlmiş addımlar atır. Ölkə başçısının liderliyi ilə Azərbaycan enerji sektorunda dayanıqlılığı təmin etmək və neft-qaz ehtiyatlarına əsaslanan iqtisadiyyatdan daha müxtəlif mənbələrə keçid etmək istiqamətində əhəmiyyətli addımlar atıb. Cənub Qaz Dəhlizi layihəsi Azərbaycanın qaz resurslarının Avropaya ixracını təmin edərək həm enerji təhlükəsizliyinə, həm də ölkənin iqtisadiyyatına uzunmüddətli gəlir gətirir. Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan bərpaolunan enerji mənbələrinin inkişafını prioritet edib. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "yaşıl enerji" zonası elan edilməsi ölkəmizin gələcəkdə qlobal enerji bazarında liderlərdən birinə çevrilməsi məqsədi daşıyır. Turizm, kənd təsərrüfatı, informasiya texnologiyaları və sənaye sahələri üzrə yeni layihələr həyata keçirilir. "Elektron hökumət" sisteminin inkişafı və süni intellekt texnologiyalarının tətbiqi idarəetmədə şəffaflıq və effektivliyi artırmaqla yanaşı, Azərbaycanın rəqəmsal iqtisadiyyata keçidini təmin edir. Təhsil sahəsində həyata keçirilən islahatlar Azərbaycanın gələcəyinə xidmət edən əsas investisiyalardır. Prezident İlham Əliyevin təşəbbüsü ilə yeni universitetlərin açılması və beynəlxalq təhsil proqramlarının dəstəklənməsi gənclərin qlobal səviyyədə rəqabətə davamlı olmasını təmin edir. Həmçinin əhalinin rifahının yüksəldilməsi üçün müxtəlif sosial proqramlar həyata keçirilir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qonşu dövlətlərlə əməkdaşlıq və regional inteqrasiya siyasətini uğurla davam etdirir. Ölkə başçısı Azərbaycanın beynəlxalq aləmdə mövqeyini gücləndirmək üçün 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına uğurla rəhbərlik edib. COP29-un ildə minimum 300 milyard ABŞ dolları məbləğində iqlim dəyişmələri ilə mübarizə üzrə təklif olunan sazişin yekun variantının təsdiqi ilə yekunlaşması da liderlik qabiliyyətinin növbəti təcəssümü olub. Prezident İlham Əliyevin mövqeyi Azərbaycanın bu günü ilə yanaşı sabahını da düşünən, strateji hədəfləri olan bir uzaqgörən liderin siyasətidir. Onun həyata keçirdiyi uzunmüddətli layihələr ölkənin dayanıqlı inkişafını təmin etməklə yanaşı, ölkəmizin qlobal səhnədə daha güclü və nüfuzlu dövlət kimi tanınmasına səbəb olur.

Güclü lider, güclü dövlət konsepsiyası tarixin axarında özünü dəfələrlə sübut edib. Liderin vizyonu, qərar qəbuletmə qabiliyyəti və xalqla birliyi bir dövlətin uğurunu müəyyən edən əsas faktorlardandır. Tarixə, yaxud müasir dövrə baxan zaman bir daha bu reallığın şahidi oluruq.

**Nurcan SÜLEYMANOVA,**
**"Respublika".**